BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Humanitar elmlər seriyası 2015*

**UOT 94 (479.24)**

# AZƏRBAYCANDAKI MİLLİ SİYASƏTİN DİGƏR CƏNUBİ QAFQAZ RESPUBLİKALARI İLƏ MÜQAYİSƏLİ TƏHLİLİ (XX ƏSRİN 20-30-CU İLLƏRİ)

**T.A.ASLANOVA**
***Bakı Dövlət Universiteti***
***tehmine-aslanova@mail.ru***

*Milli siyasət Rusiyanın çoxmillətli regionu olmaq etibarilə Azərbaycan üçün çox vacib idi. Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra ilk onillikdə bu sahədə bir sıra cüzi dəyişikliklər baş vermişdi. Qeyri-azərbaycanlıların yerli əhaliyə münasibətində ayrı-seçkiliyə yol verilir, sadə vətəndaşları alçaltmaqdan belə çəkinmirdilər. Bu və digər məsələlər ətrafında rəhbər dairələrdəki ixtilaflar və siyasi çəkişmələr neqativ nəticələrə səbəb olur və avtoritar-totalitar rejimin formalaşmasına şərait yaradırdı.*

**Açar sözlər:** milli məsələ, nomenklatura, totalitar rejim, Cənubi Qafqaz, ixtilaflar, “sağ” və “sol” təmayüllər

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasının ilk onilliyində milli siyasətdə nəzərəçarpacaq dərəcədə irəliləyiş baş verməmişdi. Respublikanın ictimai həyatında ruslar və ermənilər üstünlük təşkil etməkdə davam edirdilər. “Kadrların seçilməsi və yerləşdirilməsi” probleminə yanaşma müəyyən xüsusiyyətlərə malik idi. Nomenklaturanın tərkibində qeyri-milli ünsürlərin xüsusi çəkisi kifayət qədər, hər halda onların əhali tərkibindəki payından xeyli yüksək idi. Bunun bir sıra səbəbləri vardı. Birincisi, əhalinin ruslar, yəhudilər və hətta erməni hissəsi ilə müqayisədə azərbaycanlıların təhsil səviyyəsinin daha aşağı olması idi. Bu cəhət nomenklatura kadrlarının komplektləşdirilməsində mühüm rol oynayırdı. İkincisi, inqilabaqədərki sosialist hərəkatının və Azərbaycanda Sovet hakimiyyətinin qurulması və təsdiqi uğrunda mübarizənin iştirakçılarının daha fəal hissəsi kimi çıxış edən ruslar, yəhudilər və ermənilər nəticə etibarilə sonrakı illərdə respublikada nomenklaturanın formalaşmasında üstün mövqeyə malik idilər. Üçüncüsü, nomenklatura vəzifələrinin müəyyən hissəsi – xüsusən, təsərrüfat idarəçiliyi sahəsində – birbaşa Moskvadan təyin olunurdu və ümumittifaq mərkəzinin agentləri ilə doldurulurdu (1, 10-11). Azərbaycan SSR Fövqəladə Komissiyanın sabiq sədri Əyyub Şirin oğlu Xanbudaqov Azərbaycan tarixinə bolşeviklərin Azərbaycanda milli siyasət məsələsi üzrə rəsmi mövqe-

yinə qarşı çıxan ilk müxalif şəxs kimi daxil olub. O hələ 1924-cü ildə milli respublikalarda böyük rus şovinizmi təhlükəsi haqqında açıq çıxışlar etmiş, respublikanın dövlət orqanlarının ruslaşdırılmasına qarşı olduğunu bildirərək dövlət aparatının türkləşdirilməsinə çağırışlar etmişdir. O zaman, 1920-ci illərin əvvəllərində Əyyub Xanbudaqov "milli hücumları"na görə tutduğu vəzifəsini itirərək Moskvaya göndərilir (2, 296). Bütün bunlar milli əhval-ruhiyyəli Azərbaycan bolşeviklərinin çaşqınlığına səbəb olur. Belə ki, əvvəl N.Nərimanov, daha sonra Ə.Xanbudaqov, Ə.Əhmədov və başqaları yerliləşdirilmə, dövlət orqanlarının türkləşdirilməsi, milli hərbi hissələrin yaradılması, türk dilinin dövlət dili elan olunması tələblərini irəli sürməyə başlayırlar.

XVI Ümumbakı partiya konfransında aparatın milliləşdirilməsi ilə bağlı bir sıra özünəməxsus tərəflər göstərilmişdi (konfrans 27 dekabr 1926-cı il – 6 yanvar 1927-ci ildə keçirilib). Konfransda iştirak edən AK(b) P MK katibi L.Mirzoyan dövlət aparatının tam milliləşdirilməsinin qeyri-mümkünlüyünü diqqətə çatdıraraq, aparatın iki hissəyə bölündüyünü bildirdi. "Bir hissəni yaxın illərdə milliləşdirmək nəzərdə tutulur, digər hissəni – Bakı Soveti və Azneft kimi dövlət aparatlarını bir sıra səbəblərə görə yaxın vaxtlarda milliləşdirmək mümkün deyil" (3, 18). Səbəb kimi Bakıda əhalinin qeyri-türk hissəsinin faizinin xeyli yüksək olması göstərilirdi. Türklər şəhər əhalisinin 50%-dən azını təşkil edirdilər. Azneft işçilərinin böyük hissəsini ruslar, ermənilər və digər millətlərin nümayəndələri təşkil edirdi. Aparatın milliləşdirilməsinə qədər konfrans onu Azərbaycan dilini bilən şəxslərlə təmin etməyi qarşısına məqsəd qoymuşdu. "Belə hallar olub və indi də mövcuddur ki, türk dilində yazılan ərizələri qəbul etmirlər", bəhanə edirlər ki, "türk dilini bilmirlər". Bundan başqa, deyirlər: "rus dilinə tərcümə edin, gətirin və biz qəbul edəcəyik" (3, 19). Təbii ki, bu nöqsanların aradan qaldırılması metodları uğursuz olduğundan nəticəsi də yox idi.

Mirzoyanın konfransdakı çıxışında diqqətiçəkən məqamlardan biri Rzazadə soyadlı sabiq partiya işçisinin məqaləsi barədə məsələ idi, hansı ki, o, bu məqalədə türk xalqının "xarakteristikasını" verərək milliləşdirməyə olan münasibətini bildirmişdir. "...Türk xalqı – Şərqin geridə qalmış və məzlum xalqlarından biridir, bu xalq digər az-çox mədəni xalqlardan xeyli geridə qalıb. Bu xalqda proletar hissi inkişaf etməyib, hətta xırda-burjua hissindən də uzaqdır. Bizdə həm də milli hiss də kifayət qədər inkişaf etməyib – milli hiss dedikdə, bu sözün tam mənasında və milli miqyasda. O, elə bil ki, kortəbii şəkildə, yalnız Oktyabr inqilabının nəticəsində zülmdən azad olaraq guya öz müqəddəratını təyinetmə hüququ aldı. Çətin ki o özü müstəqil olaraq məzlum xalq vəziyyətindən çıxa bilərdi. Bu xalq təsadüfən birləşdi, daha doğrusu, onu, yolunu azmış qoyun yoldan ötən sürüyə qoşulan kimi inqilabi dalğaya birləşdirdilər. Bütün bunları görərək öz-özünə sual verirsən ki, doğrudanmı AK(b)P BK ASSR-də türkləşdirməni həyata keçirməyə çalışır. Və nə qədər kədərli olsa da belə nəticəyə gəlirsən ki, bütün bunlar kukla komediyası və uşaq nağıllarıdır, heç kim həqiqətdə bu məsələlərlə maraqlanmır və BK rəhbərlərindən heç

kəs səmimi olaraq türk işçi – kommunist kadrları yaradaraq türkləşdirmə həyata keçirmək istəmir. Bundan əlavə, onlar üzdə olan cüzi sayda, az-çox dözümlü türk işçilərinə məhəl qoymayaraq son dərəcə formal münasibət nümayiş etdirir və ya onlardan (bir sıra yüksək vəzifələr və digər təkliflərlə aldadaraq) müxtəlif qruplaşmalarda istifadə edirlər. Bəli, məhz qruplaşmalarda. Azərbaycanda rəhbər işçilər ölkənin inkişafı və sənayeləşdirilməsi işində işgüzarlıq göstərmək yerinə yalnız intriqa, qruplaşma, kreslo uğrunda bir-birinə qarşı mübarizə aparmaqla məşğuldurlar" (4, 42).

Qeyd etmək vacibdir ki, Zaqafqaziya diyarı şöbələrinin şəxsi tərkibində azərbaycanlılar az idi. ÜİK(b)P ZDK Rəyasət Heyətinin Zaqafqaziya diyarı orqanlarının şəxsi tərkibi haqqında 1927-ci il qərarında deyilirdi ki, "istehlak kooperasiyalarının tərkibinə daxil olan təşkilatların aparatı üzrə türklərin sayı bütün Zaqafqaziya üzrə orta hesabla təkcə 3,4%, məsul işçilər arasında – 6,2% təşkil edir (respublika kooperativ təşkilatları aparatında işləyən)" (5, 17). Bu vəziyyət, demək olar ki, dəyişməz qalır. 1927-ci ilin noyabrında Zaqafqaziya Kommunist təşkilatlarının VI qurultayında qeyd olunmuşdu ki, "Zaqafqaziya dövlət aparatında türklər çox azdırlar, cəmi 3 faiz təşkil edirlər" (6, 279).

ÜK(b) P-nin XV qurultayının stenoqrafik hesabatında Stalinin nitqindən aşağıdakı statistik faktlar nümunə olaraq göstərilir: "... Yoldaşlar, əgər respublika aparatlarının milli tərkibini götürsək, bunları görə bilərik... Azərbaycan üzrə - paytaxtda: ruslar – 39,4%, türklər – 24, 6%, ermənilər – 18,8%, gürcülər – 0,1%, yəhudilər – 10,6%, digər xalqlar – 5,6%, bütün respublika üzrə: ruslar – 25,3%, türklər – 40,3%, ermənilər – 23,8%, gürcülər – 0,6%, yəhudilər – 5,8%, digərləri – 4,2%" (7, 444). Lakin Ukrayna, Belorusiya və Gürcüstanda paytaxt və bütün respublika üzrə yerli nümayəndələr ruslarla müqayisədə üstünlük təşkil edirdilər. "Milli mütəxəssislər haqqında məsələ əvvəlki kimi kəskin durumdadır. Göstərmək kifayətdir ki, Azərbaycanda 150 torpaqölçəndən cəmi 3 nəfəri türk, 100 baytar həkimdən biri belə türk deyil... Sovet aparatına fəhlə və kəndlilərin (məşğuliyyət üzrə), eləcə də yerli nümayəndələrin cəlb edilməsi sahəsində işlər cüzidir. 1924-1926-cı illərdə bütün Azərbaycan üzrə mərkəzi, qəza aparatlarında 325 fəhlə və kəndli işlə təmin olunmuşdur ki, onlardan 80 nəfəri – 24,6% -i türk idi" (8, 510). Problemin digər tərəfi o idi ki, "idarələrin bəzi rəhbərləri – avropalılar tərəfindən aparatın milliləşdirilməsi işinə qarşı passiv müqavimət var. ...Bir çox Avropa işçiləri yerli işçilərə köməkçi rolunu yerinə yetirmirlər, əksinə, onlara münasibətdə bu mövqedə dururlar: "işləməyimə mane olma, 225 rubl al., istəyirsən – çayxanada otur, istəyirsən – məktəbə get, yalnız mənə öz işimi görməyə mane olma, belə ki, mən onu səndən yaxşı görürəm" (8, 511).

Eləcə də etiraf edilirdi ki, bütün Zaqafqaziya üzrə aparatın yerliləşdirilməsi məsələsi xüsusilə Azərbaycanda pis vəziyyətdədir. "Orada aparatda türklər - cəmi 31 faiz., ermənilər – 16 faiz., ruslar və digərləri isə birgə - 52,8 faiz idilər" (9, 278).

Cənubi Qafqaz respublikaları aparatlarında antisovet və yad ünsürlərin

mövcudluğu haqqında məsələ üzrə "daha yaxşı vəziyyətdə Ermənistandır, pis vəziyyətdə - Gürcüstan və daha pis durumda isə Azərbaycandır. ...Azərbaycanın kooperativ orqanlarında – türklər 24-25 faiz, Ermənistanda – ermənilər 96 faiz və Gürcüstanda – 58 faiz gürcülər idi" (9, 278). Əgər tədqiq olunan illərdə Azərbaycan Həmkarlar İttifaqı Şurasının təbliğat - rəhbərlik, təşkilat - rəhbərlik şöbələrinin rəhbər şəxslərinin soyadlarına baxsaq, görmək olar ki, onlar hamısı ruslar idi. "Partiya orqanlarının təlimat aparatında yerli nümayəndələr zəif təmsil olunmuşdular (Qazaxstan, Azərbaycan, Özbəkistan, Tatarstan və Ukrayna üzrə)" (10, 505). Mərkəz bu sahədə tədbirlərin həyata keçirilməsini bildirsə də, 30-cu illərin birinci yarısında Azneft, Azərittifaq və Dövlət Bankı kimi idarələrdə vəziyyət qənaətbəxş deyildi. Bunu AKP MNK və Azərbaycan Xalq Fəhlə-Kəndli Müfəttişliyi Komissarlığının 1933-cü ildə MK katibi Ruben və BK katibi H.Rəhmanova göndərdiyi məktub təsdiq edir. "1932-ci ilin yanvarında Azneft aparatında 487 işçidən 42 nəfəri (8,6%), 1933-cü ilin yanvarında Azneft aparatında 464 /67 nəfəri türk idi (14,4%). ...Azneftin mərkəzi aparatının 249 nomenklatura işçisindən yalnız 28 nəfəri, yəni 11,2 %-i türk idi. Əgər nomenklatura işçilərinin baş mühasib, baytar həkimlər, usta köməkçiləri daxil olan bu kateqoriyasını dəqiqləşdirib və yalnız rəhbər tərkibi götürsək, o zaman daha xoşagəlməz faktlar üzə çıxır. Aparatın 55 nəfər rəhbər işçisindən (idarə direktorunun müavin və köməkçisi, şöbə müdirləri) türklər cəmi 9 nəfərdir" (11, 255-256).

ÜK(b) P MK-nın Təşkilati-bölüşdürücü şöbəsinin ÜK(b) MK-ya göndərdiyi "Sovet, partiya, həmkarlar və kooperativ aparatların milliləşdirilməsi təcrübəsi haqqında" adlı 1927-ci ilə aid hesabatında göstərilir ki, "1926-cı ilin ortalarına qədər şərqdəki milli respublikalarda aparatların milliləşdirilməsində tətbiq olunan metod faiz qaydaları metodu idi. Belə ki, hər müəssisə üçün yerli işçinin faizini müəyyənləşdirən planlar tərtib olunurdu. Bu faizlər bir çox hallarda kifayət qədər real əsasa malik olmadan bir neçə il qabağa müəyyənləşdirilirdi. Planda bu və ya digər ildə aparatda konkret hansı vəzifələrin milliləşdirilməsinin vacibliyi göstərilmirdi. Milliləşdirmə üzrə işə rəhbərlik MİK və TİK yanında yaradılan xüsusi komissiyaya tapşırılmışdı, hansı ki faktiki olaraq yerli texniki işçilərin qeydiyyata alınması və onların işə göndərilməsi ilə məşğul idi.

Həmkarlar və Xalq Əmək Komissarlığı orqanları ilə işçi qüvvəsinin göndərilməsində komissiyanın onlarla hesablaşmaması səbəbindən münaqişələr baş verirdi. Müvafiq ixtisasa malik yerli işçilərin axtarılması qayğısından azad olan idarə rəhbərləri həm də öz aparatlarının keyfiyyət və əmək qabiliyyətinə görə məsuliyyətindən azad olunurdular; yerli işçilərin sayının müəyyən olunmuş vaxta nəzərdə tutulan faizə çatdırmaq arxasınca qaçan idarə rəhbərləri faiz normasına bir çox hallarda yerliləri xidməti heyətdə yerləşdirməklə nail olurdular: gözətçi, sürücü və digərlərini göstərmək olar.

1926-cı ilin sonunda respublikalar aparatın milliləşdirilməsinin funksional metoduna keçirlər. İdarələrin heyətində funksional işi yerli əhaliyə xidmətlə

bağlı olan vəzifələrin nomenklaturası müəyyən olunur.

Qeyd olunan nomenklaturanın doldurulması müddəti bir tərəfdən, hələ ki aparatda işə cəlb edilməyən işçilərin – yerlilərin kurslar, məktəblər və s. vasitəsilə hazırlanması planı, digər tərəfdən, avropalıların yerli dili öyrənmələrinin praktiki mümkünlüyü ilə əlaqəlidir.

Müəssisələrin yerliləşdirilməsi üzrə məsuliyyət ilk növbədə, onların rəhbərlərinin üzərinə qoyulmuşdu. Yerliləşdirmə üçün vacib olan işçilərin qeydiyyatdan keçirilməsi prosesi Xalq Əmək Komissarlığının səlahiyyətində idi. Eyni zamanda idarə rəhbərlərinə Xalq Əmək Komissarlığı orqanları vasitəsilə deyil, növbəti qeydiyyatla işçilərin sərbəst seçilməsi və işə götürülməsi hüququ verilirdi" (10, 514).

Bolşeviklər hakimiyyətə gəldikdən sonra ilk iki onillik ərzində özlərini rus və yerli millətçilik təzahürlərinə qarşı mübarizlər kimi göstərməyə çalışırdılar. Bununla belə reallıqda onlar həmişə və hər şeydə bu mövqedə durmurdular.

R(b) KP MK-nın Təşkilati-bölüşdürücü şöbəsinin 1925-ci ilə aid "Milli respublikalar və vilayətlərin partiya orqanlarında vəziyyət haqqında" adlı hesabatında rus millətçiliyi və kadr çatışmazlığı ilə əlaqədar yerli kommunistlərdən kadr hazırlanması haqqında məsələ öz əksini tapmışdı. "Partiya-sovet işində ruslar əsas mövqeyə malik idilər. Onlar heç bir həssaslıq göstərmir və yerli xalqlardan olan kommunistlərlə hesablaşmırdılar, onları işə cəlb etmir, partiya və sovet aparatına rəhbərliyi əldə etmələri məsələsində kömək etmirdilər. Bu siyasət yerli kommunistlər arasında narazılığa səbəb olurdu. ... Bir neçə rayonda müxtəlif kommunistlər arasında şikayətlər var ki, yerlilər məsul işlərə istənilən dərəcədə irəli çəkilmirlər, onlara yer verilsə də bu daha çox görüntü üçün edilir" (10, 358).

Bu illərdə "böyük rus şovinizmi" və "yerli millətçilik"lə mübarizə ideyası geniş yayılmışdı. "Milli təmayüllərin olması sinfi düşmənlərin fəallığı ilə əlaqədardır" şüarı siyasi maraqlar baxımından Mərkəz üçün əlverişli idi. Stalin "hakim dövlət şovinizmi"ni ideya-siyasi rəqiblərini uzaqlaşdırmaq, "yerli millətçiliyi" isə yerlərdə onlara dayaq ola biləcək qüvvələri aradan götürmək üçün istifadə edirdi. Digər tərəfdən, "hakim dövlət şovinizmi" örtüsü altında "yerli millətçilik" təzahürlər"inə qarşı ciddi tədbirlər görülürdü. ÜK(b)P-nin XII qurultayındakı nitqindən bir hissə diqqəti cəlb edir: "... Mən bilərəkdən güclənən qüvvə kimi böyük rus şovinizmində dayandım. Bu qüvvə əvvəllər əzilən xalqların rus proletariatına inamını sarsıdan başlıca təhlükədir. Bu bizim zəiflətməli olduğumuz təhlükəli düşmənimizdir, əgər onu zəiflətsək, bu halda 9/10 müxtəlif respublikalarda mövcud olan və inkişaf edən millətçiliyi də zəiflədərik" (12, 145).

Demək olar ki, respublikanın və vilayətlərin bütün partiya təşkilatlarında Mərkəz tərəfindən öz mövqeyinin möhkəmləndirilməsi üçün məharətlə irəli çəkilən "sağ" və "sol" təmayül haqqında məsələ, eləcə də "millətçilik" bəhanəsi altında "sağlar"ın sinfi dayağı kimi ziyalıların təqibi geniş yayılmışdı.

Mərkəz böyük rus millətçi təmayülünü sol, yerli təmayülü sağ kimi təqdim etməyə cəhd edənlərə qarşı çıxaraq hər iki millətçi təmayülün sağ təmayül olduğunu təbliğ edirdi. "Kommunizmə müxalif təmayüllər kimi "sağ", "sol" terminlərinin istifadə edilməsinin mənası odur ki, birinci halda opportunizm, prinsipsizlik açıq çıxış edir, ikinci halda isə solçu ifadələrlə ört-basdır edilir" (12, 175).

Stalin öz çıxışlarında yerli kommunistlərin yerli millətçiliklə, rus kommunistlərinin böyük rus şovinizmi ilə mübarizəsi məsələsinə xüsusi yer ayırmaqla yerli kommunistlər arasında düşmənçilik və təfriqə toxumu səpirdi. "...Yerli, qeyri-rus kommunistlərinin öz şovinizmi ilə mübarizə aparmaq öhdəliyi var. Məgər antirus şovinizminə meyllərin mövcudluğunu inkar etmək olarmı? Axı bütün qurultay əyani olaraq gördü ki, yerli, gürcü, başqırd və digər şovinizm mövcuddur, onlarla mübarizə aparmaq lazımdır. ... Yalnız tatar, gürcü kommunistləri tatar, gürcü şovinizminə qarşı mübarizə apara bilərlər. ... Deyiləndə ki milli məsələ üzrə ön plana böyük rus şovinizmi ilə mübarizəni qoymaq lazımdır, bununla rus kommunistinin özünün rus şovinizmi ilə mübarizə öhdəliyini qeyd etmək istəyirlər. Əgər rus deyil, türküstan və ya gürcü kommunistləri böyük rus şovinizmi ilə mübarizə aparsalar, o zaman bu mübarizəni antirus şovinizmi kimi qiymətləndirəcəklər. Yalnız rus kommunistləri böyük rus şovinizmi ilə mübarizə aparmağı öz üzərlərinə götürüb onu sona çatdıra bilərlər..." (12, 159).

Bununla belə, milli məsələlərə münasibətdə xüsusən 1920-ci illərin əvvəllərində nəzərə çarpan nisbi loyallıq şəraitində sinfi təsisat və mərkəzləşdirmə ideyasının üstün mövqeyi qaçılmaz idi. SSRİ-nin yaradılması prosesində elan edilmiş dövlət quruluşunun federalizm prinsipi kifayət qədər sürətlə unitarizmlə əvəz olundu. İttifaq orqanlarının hüquqlarının genişlənməsi və idarəçiliyin mərkəzləşməsi milli respublikaların səlahiyyətlərini daha da daraldırdı. 1929-cu ildə hər hansı məsələnin respublikalardan birbaşa olaraq SSRİ MİK-ə baxılmaq üçün verilməsi hüququnun ləğv edilməsi respublikaların qanunvericilik təşəbbüslərinin faktiki ləğvi demək idi. Məlumdur ki, Stalin özünün təkhakimiyyətliliyini möhkəmlətmək üçün (xüsusilə 1929-cu ildə "sağ təmayülçülər" üzərində qələbədən sonra) yerlilərlə hesablaşmaq təcrübəsindən daha da uzaqlaşırdı və bu da yerli nümayəndələrin arasında Moskvanın siyasətindən narazılığı getdikcə artırırdı. Bunu müxtəlif səviyyələrdə və müxtəlif sosial təbəqələr arasında böyük narazılığın olması faktını təsdiq edən Birləşmiş Dövlət Siyasi İdarəsinə (BDSİ) aid materiallar bir daha sübut edir. 1920-ci illərin sonu – 1930-cu illərin əvvəllərində zorla həyata keçirilən elliklə kollektivləşmənin nəticəsi olaraq əhalinin məruz qaldığı böyük maddi itkilər və iqtisadi çətinliklər neqativ əhval-ruhiyyənin genişlənməsinə daha da təkan verirdi.

Milli siyasətdə radikal dəyişikliklərə ilk işarə milli ziyalılara qarşı hücumların güclənməsi oldu, nəinki həmişə düşmən qüvvə hesab edilən "burjua" ziyalıları, eləcə də əvvəllər hakimiyyət tərəfindən məqsədyönlü şəkildə formalaşdırılan milli kommunist elitası da təhlükə kimi qəbul edilir. Artıq

1920-ci illərin ikinci yarısında “milli rəngli” saxta liberalizmin cüzi ehtiyatları tükənməyə başladı. Əvvəlcə bu proses öz-özünə, arabir müxtəlif kommunistləri və antimüsəlman çıxışların gedişində dini təqib etmək formasında, sonradan daha aşkar və kəskin, xüsusilə “millətçilik” əleyhinə kompaniyalarda özünü göstərir.

1918-ci ildən 1933-cü ilə, bolşevik hakimiyyətinin bərqərar olmasından Stalin rejiminin milli təmayüllü siyasətdən son dərəcə mərkəzləşdirilmiş siyasətə qəti olaraq keçməsi dövrünə qədər başlıca istiqamətlərdən biri milli faktorun tarazlaşdırılması idi ki, bu da müəyyən dərəcədə yerliləşdirmə təcrübəsindən imtinada özünü göstərirdi. Məhz 1933-cü ildə ciddi sosial-iqtisadi və siyasi böhranla əlaqədar (aclıq, əhalinin kütləvi narazılığı, partiyadakı qərarsızlıq, beynəlxalq vəziyyətin kəskinləşməsi) “yerli millətçilik”lə mübarizədə xatırlanan siyasi və sosial-ictimai orqanizmin ümumi vahid şəklə salınmasına aşkar meyl nəzərə çarpdı. “Millətçilik”lə yanaşı, demək olar ki, “milli” anlayışı ilə bağlı olan hər şey kökündən məhv edilirdi. Nəticədə rejimin siyasi-ideoloji şəkil dəyişimi onun vətənpərvər təmayüllü böyük dövlət ritorikasına keçməsi ilə istiqamətini dəyişdi.

Beləliklə, Mərkəz Leninin “təmayüllərlə mübarizədə iki cəbhədə” şüarı altında öz uğursuz milli siyasətini həyata keçirirdi. Bu siyasət Azərbaycanda olduğu kimi Şərqdə də iflasa uğradı və şübhəsiz, Azərbaycan xalqının maraqlarına zidd idi. Siyasətin səbəb olduğu rəhbər dairələrdəki ixtilaflar və siyasi çəkişmələr mənfi nəticələrə gətirərək inzibati-amirlik sistemi və totalitar rejimin formalaşması üçün əsas oldu.

**ƏDƏBİYYAT**


1. Исмаилов Э.Р. Власть и народ. Послевоенный сталинизм в Азербайджане. 1945-1953 гг. Баку: Адилоглы, 2003, 344 с.
2. Мамедова Ш.Р. Интерпретация тоталитаризма. Сталинизм в Азербайджане. 1920-1930 гг. Баку: Адилоглы, 2004, 320 с.
3. Политика и задачи партии в национальном вопросе. Баку, Отдел Агитпроп при БК АКП (б)., (на тюркском языке), 1928, 44 с.
4. XVI Общебакинская партийная конференция АКП (б). (27.XII.1926 – 6.I.1927 г.). Стенографический отчет. Баку, 1927, 435 с.
5. О личном составе Закавказских краевых учреждений (Постановление президиума ЗКК ВКП (б)). // Известия ЗКК ВКП (б). 1927, №13-14, s.17
6. VI съезд Коммунистических Организаций Закавказья. Стенографический отчет. Тифлис, Акционерное общество Заккнига, 1930, 524 с.
7. Пятнадцатый съезд ВКП (б) декабрь 1927 года. Стенографический отчет. М.: Государственное издательство Политической литературы, I-II, 1961-1962, 1722 с.
8. ЦК РКП (б) – ВКП(б) и национальный вопрос. Книга 1. 1918-1933 гг. / Составители Л.С. Гатагова, Л.П. Кошелева, Л.А. Роговая – М.: (РОССПЭН), 2005, 784 с.
9. VI съезд Коммунистических Организаций Закавказья. Стенографический отчет. Тифлис, Акционерное общество Заккнига, 1930, 524 с.
10. ЦК РКП (б) – ВКП (б) и национальный вопрос. Книга 1. 1918-1933 гг. / Составители Л.С. Гатагова, Л.П. Кошелева, Л.А. Роговая. М.: (РОССПЭН), 2005, 784 с.
11. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər Arxivi. f.1, siy.74,

iş.331, səh. 255-256
12. Гирчак Е.Ф. На два фронта в борьбе с национализмом. М-Л.: Госиздат, 1930, 226 с.

## СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ НАЦИОНАЛЬНОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНЕ И ДРУГИХ РЕСПУБЛИКАХ ЮЖНОГО КАВКАЗА (20-30-е годы)

**Т.А.АСЛАНОВА**

### РЕЗЮМЕ

Национальная политика была очень важна для Азербайджана, как многонациональный регион России. За первое десятилетие установления Советской власти в Азербайджане в национальной политике произошли незначительные сдвиги. Русские и армяне продолжали занимать преимущественное положение в общественной жизни республики. Отношение к местным жителям был высокомерным и неуважительным. Раздоры и политические пререкания руководящих кругов в основе этой политики имели отрицательные последствия и стали основой для формирования административно-господствующей системы и тоталитарного режима.

**Ключевые слова:** национальный вопрос, номенклатура, тоталитарный режим, Южный Кавказ, разногласия, «правый» и «левый» уклоны

## COMPORATIVE ANALYSIS OF THE NATINAL POLICY OF AZERBAIJAN WITH REGARDS TO OTHER SOUTH CAUCASIAN REPUBLICS

**T.A.ASLANOVA**

### SUMMARY

National policy was very important for Azerbaijan as a multinational region of Russia. There was insignificant progress in the national policy for the first decade after the establishment of the Soviet government in Azerbaijan. Russians and Armenians continued to have dominant positions in the public life of the Republic. The relation to the local people was arrogant and disrespectful. Conflicts and political discrepancy among government authorities on the base of this politics had negative results and became the base for the formation of the authoritarian and totalitarian regime.

**Key words**: National issue, nomenclature, totalitarian regime, South Caucasus, discrepancy, “right” and “left” deviation